ISSN: 2710-9960 (Print)
ISSN: 2710-8432 (Online)

JOURNAL OF "HISTORY OF SCIENCE"
Cild 1, Say 1, Sıra I, 2020, 30-37

PRINCIPLES OF VOLUNTEERING IN ISLAM

Samid Alipasha Baghirov[1]

УДК 16.
KBT 87.4.

Keywords:

Islam
Volunteer
Koran
Mobilization
Aid

ABSTRACT

Since time immemorial, empires and great states have guided planning through social bases on which they could count on. These social bases at the right time come to the aid of the state and statehood, providing it with manpower, and even a material base. While providing the above-mentioned base, the states try to take advantage of national and spiritual values and projects of ideological education. Researching and implementing volunteer calls can also be counted among the steps mentioned. Studying and implementing these steps in 2020, which was the year of the coronavirus pandemic and the second Karabakh war, takes on special meaning. Volunteering in Islam is the most favored position from a moral point of view, then a person with this virtue is considered a person of the highest rank. The Holy Quran contains such expressions as "making infag (to provide means for food and life) at night", "secretly sharing his property", "taking care of others, having his own needs", "competing in the implementation of good deeds", "able to do infag when comfortable, but also when oppressed "and "volunteer-believers". Frequently repeating such and similar expressions, the Holy Quran brings to the reader what a true volunteer should be and what qualities he should have. According to the Quranic verses, the main factor that drives the volunteer presented by Islam is the divine, moral and human responsibility that he feels towards other individuals in society.

[1] ANAS, Institute of Oriental Studies
sami80@mail.ru

Received: 15.07.2020
Accepted: 04.09.2020

İSLAMDA KÖNÜLLÜLÜK PRİNSİPLƏRİ

Samid Bağırov[1]

УДК 16.
KBT 87.4.

Açar sözlər:

İslam
Könüllü
Quran
Səfərbərlik
Yardımlaşmaq

ANNOTASİYA

Əzəldən imperiya və böyük dövlətlər dəstək ala biləcəyi sosial bazalar üzərində planlamalar həyata keçiriblər. Bu sosial bazalar lazım olan zamanda dövlət və dövlətçiliyin yardımına yetişir, onun canlı qüvvəsini hətta maddi bazasını da təmin edə bilirlər. Dövlətlər sözügedən sosial bazanın təmin edilməsində milli mənəvi dəyərlərdən və ideoloji maarifləndirmə layihələrindən də yararlanmağa çalışırlar. İslamda könüllülük çağırışlarının öyrənilməsi və həyata keçirilməsi də adıçəkilən addımlardan hesab edilə bilər. Bu addımların koronavirus pandemiyasının və ikinci Qarabağ müharibəsinin təsadüf etdiyi 2020-ci ildə öyrənilməsi və həyata keçirilməsi xüsusi önəm kəsb edir.

İslamda könüllülük mənəvi baxımdan ən bəyənilən məqam olduğu kimi bu məziyyətə malik olan şəxs də ülvi dərəcəli şəxs hesab edilir. Qurani-Kərimdə "mal-dövlətini gecə ikən infaq edən", "əmlakını gizlində verən", "özü ehtiyaclı ola ola digərlərini özünə üstün tutan", "yaxşı əməlləri həyata keçirmək istiqamətində yarışmaq", "asanlıqda olduğu kimi çətinlikdə də infaq etməyi, malından və canında keçməyi bacaran" və "möminlərin könüllüləri" kimi ifadələr keçir. Qurani-Kərim bu və sair ifadələri tez-tez təkrar etməklə əsl könüllünün necə olduğunu və hansı məziyyətlərə malik olmasını oxucularına göstərməyə çalışır. Quran ayələrinə əsasən İslamın təqdim etdiyi könüllünü hərəkətə gətirən əsas amil, cəmiyyətin digər fərdləri qarşısında hiss etdiyi ilahi, mənəvi və insani məsuliyyətdir.

[1] AMEA, Şərqşünaslıq İnstitutu, k.e.işçi
sami80@mail.ru

Məqalə redaksiyaya daxil olmuşdur: 15.07.2020
Təkrar işlənməyə göndərilmişdir: 07.08.2020
Çapa qəbul edilmişdir: 04.09.2020

ISSN: 2710-9960 (Print)
ISSN: 2710-8432 (Online)

JOURNAL OF "HISTORY OF SCIENCE"
Cild 1, Say 1, Sıra I, 2020, 30-37

ПРИНЦИПЫ ВОЛОНТЕРСТВА В ИСЛАМЕ

Самид Алипаша оглу Багиров[1]

УДК 16.
КВТ 87.4.

Ключевые слова:

Ислам,
Доброволец,
Коран,
Мобилизация,
Взаимопомощь

РЕЗЮМЕ

С незапамятных времен империи и великие государства проводили планирование через социальные базы, на поддержку которых они могли рассчитывать. Данные социальные базы в нужный момент приходят на помощь государству и государственности, обеспечивая его живой силой, и даже материальной базой. При обеспечении вышеназванной базы, государства стараются воспользоваться также национально-духовными ценностями и проектами идеологического просвещения. Изучение призывов добровольности и их осуществление также могут быть причислены к упомянутым шагам. Изучение и осуществление этих шагов в 2020 году, на который пришлись пандемия коронавируса и вторая Карабахская война, приобретает особый смысл.

Волонтерство в исламе является наиболее одобряемой с моральной точки зрения позицией, то и человек, обладающий этой добродетелью, считается человеком высшего ранга. В Священном Коране проходят такие выражения как «делающий инфаг (давать средства для пропитания и жизни) ночью», «тайно делящим своим имуществом», «опекать других, имея собственные нужды», «соревноваться в осуществлении добрых дел», «способный делать инфаг когда комфортно, но также при стеснениях» и «добровольные уверовавших». Часто повторяя такие и тому подобные выражения, священный Коран доводит до читателя каким должен быть и какими качествами должен обладать настоящий доброволец. Согласно кораническим аятам, основным фактором, который двигает представленным исламом добровольцем является божественная, нравственная и человеческая ответственность, которую он испытывает перед другими индивидами общества.

[1] НАНА, Институт Востоковедения
sami80@mail.ru

GİRİŞ

2020-ci ilin ölkə prezidenti tərəfindən könüllülər ili adlandırılması böyük əhəmiyyət kəsb edir. Nəzərə alsaq ki, müharibələr, fəlakətlər və pandemiyaların öhdəsindən güclü dövlətlər deyil güclü cəmiyyətlər gəlir, burada könüllülük faktorunun sosial önəmliyi də özünü göstərmiş olur. Könüllü səfərbərliyini təkcə hərb sahəsinə aid etmək də doğru deyil. Könüllülük bir ölkənin quruculuğu və inkişafında da mühüm faktor hesab edilir. Buna görə cari ilin könüllülər ili adlandırılması, xüsusilə də onun koronavirus pandemiyasına və ikinci Qarabağ müharibəsi dövrünə təsadüf etməsi zamanında atılmış addım kimi qiymətləndirilir.

2020-ci il koronavirus pandemiyası ilə başladı. İlin ikinci yarısı isə Azərbaycan ordusunun işğal edilən ərazilərin geri alınması üçün əks həmlə əməliyyatlarına şahidlik etdi. İl sona yaxınlaşır, ölkənin hər yerində koronavirus pandemiyası ilə mübarizə davam edir, eyni zamanda cəbhədə də erməni yağılarının təxribatlarına qarşı tədbirlər davam etdirilir. Ölkədə hərbi vəziyyətlə yanaşı səhiyyə durumu da ekstrimaldır. Buna görə səhiyyə ilə bağlı karantin məhdudiyyətləri, döyüşlərlə bağlı isə fövqəladə komenadant vəziyyəti elan edilib. Məhz belə bir anda ölkədə böhranın idarəedilməsi məsələsi böyük əhəmiyyət kəsb edir. Böhranın idarə edilməsi hökumət tərəfindən ciddi və dəqiq tədbirlərin həyata keçirilməsini tələb edirsə, eyni zamanda da əhalinin əməkdaşlığının zəruriliyindən xəbər verir. Belə anlarda əhalinin əməkdaşlıq etməsi üçün onların maarifləndirilməsi, insanların milli, dini, vicadani və insani məsuliyyətlərinin aşılanması olduqca vacib amil hesab edilir.

İslam dini böhran dövrünün idarə edilməsi zamanı kütlə psixologiyasının tədqiqini ehtiva edən bir sıra tövsiləyərə malikdir. Bu tövsiyələrin bir qismi Qurani-Kərimdə, bir qismi peyğəmbərin və imamların kəlamlarında, digər bir qismi isə onların həyat tərzində öz əksini tapmışdır.

Quranda könüllülük:

Könüllü şəxs hüquqi, inzibati, hərbi və sair sahələrə uyğun tələblər olmadan, müəyyən bir yardımlaşma təşəbbüsünü heç bir məcburiyyət təhkim edilmədən könül-xoşu ilə həyata keçirən şəxsdir. Sözügedən şəxsin yardımlaşma təşəbbüsü və bu işi həyata keçirməsi əhəmiyyətli olduğu kimi, onu hərəkətə gətirən amilin mahiyyəti də mühümdür. Bu amillər araşdırılmalı, tədqiq edilməli, cəmiyyətdə onların kök atması üçün maarifləndirmə işləri aparılmalıdır. Könüllülük əsasən yardımlaşma qisminə aid olur. Bu yardımlaşmanın mühərriki Allahın insanın varlıq xəmirinə qatdığı fitri humanistlik hissi, vicdanı və daxili mərhəmət hissi də ola bilər[1]. Bu hislər bütün insanlarda mövcuddur. Lakin insanın yaşam tərzi, düşdüyü mühiti, qəbul etdiyi sosial düşüncə həmin hisləri daha da çiçəkləndirə və yaxud əksinə onu ört-basdır edib tozlandıra da bilər.

İbni-Əsir fitrət məfhumunu izah edərkən Məhəmməd peyğəmbərin “Hər doğulan fitrəti əsasında dünyaya gəlib”[2] hədisinə istinad edərək deyir:

“**Fitrət** insanda hər fərdin yaradılışının başlanğıcı deməkdir. İnsan bu yaradılışla ilahi dini əxz edir və əgər insanı həmin yaradılan sifətlərilə birgə baş-başa buraxsan dəyişməz və həmin sifətlər onda davam edər. Buna görə bəşərin qeyd edilən sifətlərdən üz döndərməsi digər əşyaların onun üzərində göstərdiyi (mənfi) təsirə görədir.”[3]

Bu o deməkdir ki, insanın yardımlaşma hissini oyadan və onu hərəkətə gətirən amillərdən biri insanın fitri hissləridir ki, Allah tərəfindən insanda xeyirxahlıq hissi kimi qoyulub. Lakin bu hislər zaman etibarilə fərddə qorunub saxlanılıb inkişaf etdirilə də bilər, quru kapitalist düşüncələrə məğlub olub, yaddan çıxa da bilər. Elə isə ilk növbədə könüllü tərbiyə etmək üçün ilahi fitri hisslərin cücərdilməsi üzərində işləmək lazımdır.

Bəzi müsəlman filosoflar, könüllülük hissinin amillərini araşdırarkən “insanın xeyirxahlıq hissi” amili üzərində daha çox dayanırlar. Müasir müsəlman müfəssiri Ayətullah Cavadi Amili bildirir

[1] Qurani-Kərim, Rum 30

[2] Əbu-Hamid əl-Qəzzali, Məhəmməd bin Məhəmməd, İhya Ülumuddin, cild-3, səh-3, Darul-Kutub əl-İlmiyyə, Beyrut, 1998

[3] İbni-Əsir, Məcduddin əl-Mübarək bin Məhəmməd, Nihayətun fi ğəribil-hədisi vəl-əsər, cild-3, səh 457, Məktəbətul-İslamiyyə, Beytur, 2001

ki, insanın zatı xüsusiyyəti və birinci əsas haləti xeyirxahlıq, lakin şər işlərə meyillilik isə sonradan yaranan ikinci halətdir.

O, əlavə edir:

"İnsan zatən yaxşılıqları istəyir və gözəllikləri axtarır. İnsan pisliklərdən qaçan və çirkinliklərdən üz döndərəndir. İnsanın fitrət və təbiəti xeyirə və yaxşılığa meyillidir və zati olaraq insanı pis hesab etmək olmaz."[1]

Cavadi Amilinin fikirlərinə əsasən insanın fitri və təbii (maddi) istəkləri rəqabətdədirlər. Birinci ikincini üstələdikdə xeyirxahlıq, ikinci birincini üstələdikdə isə şər işlərə meyillilik artır. Yuxarıda deyilənlərdən belə aydın olur ki, könüllülük hissinin aşılanması üçün birinci növbədə insanı onun fitri hisslərinə qaytarmaq lazımdır.

Axirət azuqəsinin toplanması

Könüllünü hərəkətə gətirən ikinci amildir. Quranın təsvir etdiyi könüllü axirət dünyasına, əbədi həyata, ölümdən sonrakı əbədiyyətə, cəza və mükafat məhkəməsinə iman gətirib. Bu iman onu hərəkətə gətirən ən böyük mühərrikdir. O bu imanla kimsənin təşəkkür etməsinə ehtiyac duymur. Yardımlaşma zamanı o, kimsədən təqdir istəmir. O mükafatını rəbbindən gözləyir. Buna görə çalışır ki, etdiyi işi rəbbindən başqa kimsə görməsin. Çalışır ki, etdiyi yardımı kimsə görüb, onun riyakarlığına səbəb olan vəziyyətlə qarşılaşmasın.

Qurani-Kərim buyurur:

"Mallarını gecə-gündüz, gizli-aşkar (yoxsullara) infaq edənlər üçün Rəbbi yanında mükafatları vardır. Onlar üçün heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər."[2]

Qeyd edilən ayədə könüllü şəxsin bir neçə özəlliyi əks etdirilir. Ayəyə əsasən könüllü yardımlaşmanı aşkarda etdiyi kimi onu gizlində də həyata keçirir. O gündüz etdiyi xeyirxah əməlləri bilinməsin deyə hamı yatan zamanda da gerçəkləşdirir. Məqsəd ilahi mükafata nail olmaqdırsa, xeyirxah əməlin gecə və ya gündüz həyata keçirilməsinin onun heç bir fərqi yoxdur. Yalnız belə insanlardır ki, zəhmətinin hədər getməsindən, nəticəsiz qalmasından qorxmur, çünki onun zəhməti ilahi kitabda qeydiyyata alınmışdır.

Əllamə Məhəmməd-Baqir Məclisi (1628-1699) Biharul-Ənvar əsərində yazır:

"Ravi Hişam ibni Salim deyir: İmam Sadiqin adəti belə idi ki, gecənin qaranlığında, içində yeyinti və pul olan yardım yüklərini çiyninə alıb, Mədinə şəhərinin yoxsullarının qapılarına gedər, ərzaq yüklərini ora qoyardı. Buna baxmayaraq kimsə onu tanımazdı. Həzrət Sadiqin vəfatından sonra onlar yardım çatdıran şəxsin imam olduğunu bildilər."[3]

Könüllü fədakarlığı

Quranda qeyd edilən xüsusiyyətlərdən biridir. İslam əxlaqında fədakarlığa "isar" deyilir. İsar edən şəxs özünün ehtiyacı ola ola digərini özünə üstün tutan şəxsə deyilir. Bu şəxsləri yalnız ilahi mükafat maraqlandırdığı üçün digərindən təşəkkür də ummur, özünün ehtiyacı ola ola və hətta qarşı tərəfə xəbər vermədən yardımlaşma təşəbbüsünü həyata keçirir. Qurani-Kərim islam tarixində baş vermiş isarın bir nümunəsini belə qeyd edir:

"Onlardan (mühacirlərdən) əvvəl (Mədinədə) yurd salmış və (Muhəmməd əleyhissəlama qəlbən) iman gətirirmiş kimsələr (ənsar) öz yanlarına (şəhərlərinə) mühacirət edənləri sevər, onlara verilən qənimətə görə ürəklərində həsəd (qəzəb) duymaz, özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tutarlar. (Allah tərəfindən) nəfsinin xəsisliyindən (tamahından) qorunub saxlanılan kimsələr – məhz onlar nicat tapıb səadətə (Cənnətə) qovuşanlardır!"[4]

Qeyd edildiyi kimi "isar" Ənsar qrupunun ən üstün məziyyətlərindən biridir. Bu məziyyət fədakarlığın ən bariz nümunələrindən biri olduğu üçün Qurani-Kərim onu özəlliklə təqdir edir.

---

[1] Cavadi Amili, Abdullah, Həyate həqiqiye ensan dər Qoran, səh-292, Qum, İsra Nəşriyyatı, 2013
[2] Qurani-Kərim, Bəqərə 274
[3] Məclisi, Məhəmməd-Baqir, Biharul-Ənvar, cild-47, səh-38, Dar İhya ət-Turas əl-Ərəbi, Beyrut, 1995
[4] Qurani-Kərim, Həşr 9

Şeyx Kuleyni (864-941) əl-Kafi əsərində isar və fədakarlıq haqda yazır:

"Əban ibni Təğlib imam Cəfər Sadiqin yanına gələrək ondan bir möminin digər möminin öhdəliyində olan haqqı barədə soruşdu. O dedi: Ey Əban bu məsləni kənara qoy digər məsələlərdən danış!. Əban bildirir ki, mən yox deyib israr etdim. O həzrət bunu görcək dedi: Mömin qardaşının sənin boynunda olan öhdəliyi budur ki malını onun üçün ikiyə böləsən. Sonra həzrət mənim üzümə baxıb, təəccübləndiyimi görüb dedi: Ey Əban sən mütəal Allahın, digərini özündən üstün tutan isar edən və fədakar şəxs haqda buyurduğunu eşitməmisənmi?! Bil ki, əgər öz malını biri ilə ikiyə bölürsənsə bu hələ isar etmək demək deyil. İsar etmək, özünə saxladığın ikinci yardıdan da ona verməyə deyilir."[1]

Qurani-Kərimdə qeyd edilən yardımlaşma işinin (infaq) gizlində olması, daha çətin məqamda həyata keçirilməsi, infaq olunan şəxsdən təşəkkür və əvəz ummamaq, təşəbbüsün və addımın gizli qalması, infaq edildiyi zaman verilən malın ən keyfiyyətli hissəsindən ayırıb vermək kimi özəllikləri var. Bu özəlliklər könüllü şəxsin əsas səciyyələridir. Belə bir səciyyə və məziyyətlərin hamısını bir şəxsdə görmək bəs qədər çətindir. Bununla yanaşı onun ünvanını tapmaq asandır və bu məziyyətləri həqiqi Allah qulları arasında tapmaq mümkündür.

Təşəkkür ummamaq

Qurani Kərimdə bir neçə dəfə qeyd edilən, mömin insana məxsus bir məziyyətdir. Mömin insan yardım edir və məqsədi ilahi mükafata nail olmaqdır. Bu zaman riyakarlıq kimi mənfi xislətlərdən uzaq olsun deyə işini gizlində görür. Belə bir insan adətən aşkarda ictimaiyyət qarşısında yardım etmir. Edən zaman onu gizlində edir və mükafatını rəbbindən diləyir. Buna görə qarşı tərəfin təşəkkür edib etməməsinin onun üçün fərqi yoxdur. Quranda buyurulur:

"Onlar öz iştahaları çəkdiyi (özləri yemək istədikləri) halda (və ya: Allah rizasını qazanmaq uğrunda) yeməyi yoxsula, yetimə və əsirə yedirərlər. (Və sonra da yedirtdikləri kimsələrə belə deyərlər:) "Biz sizi ancaq Allah rizasından ötrü yedirdirik. Biz sizdən (bu ehsan müqabilində) nə bir mükafat, nə də bir təşəkkür istəyirik."[2]

Tanınmış əhli-sünnə alimi müfəssir Zəməxşəri (1075 -1144) bildirir ki, bu ayə Məhəmməd Peyğəmbərin Əhli-beyti haqda nazil olub:

"İbni-Abbas nəql edir ki, Həsənlə Hüseyn xəstələnəndə həzrət Fatimə və həzrət Əli onların sağalması üçün oruc tutacaqları ilə bağlı nəzir etdilər. Həsən və Hüseyn sağalandan sonra onlar üç gün oruc tutdular. Uşaqlar da oruca qoşuldu. Onlar hər gün iftar vaxtı qapıya gələn yoxsula yeməklərini verməli oldular və özləri ac qaldı. Bu zaman Əlinin evinə gələn Məhəmməd Peyğəmbər Əhlibeytinin halını görüb pərişan olur. Elə bu zaman Cəbrayıl nazil olaraq, ey Məhəmməd bu surəni oxu, deyərək buyurur."[3]

Yardım qarşısında təşəkkür ummaq və bunu müəyyən yolla yardım alan şəxsin və sairlərinin qarşısında nümayiş etdirmək, minnət qoymaq deməkdir. Qurani-Kərimdə bunu məzəmmət edən bir sıra ayələr mövcuddur. Bəqərə surəsində belə buyurulur:

"Ey iman gətirənlər! Sədəqələrinizi malını riyakarlıqla (özünü xalqa göstərmək üçün) sərf edən, Allaha və axirət gününə inanmayan şəxs kimi, minnət qoymaq və əziyyət verməklə puça çıxarmayın. Belə şəxslərin halı, üzərində bir az torpaq olan qayaya bənzər ki, şiddətli bir yağış o torpağı (yuyub) aparar və qayanı çılpaq bir daş halına salar. Onlar qazandıqlarından bir şeyə qadir (nail) olmazlar. Şübhəsiz ki, Allah kafirləri haqq yoluna yönəltməz!"[4]

Ayələrin məzmunundan əldə olunan budur ki, yalnız Allahın haqqı var ki, verdiyi nemətlər qarşısında təşəkkür umsun. İlahi kəlamlarda görünən budur ki, yalnız Allahın minnət qoymağa ixti-

[1] Kuleyni, Əbu-Cəfər Məhəmməd ibni Yaqub , Üsuli-Kafi , cild-2, səh-172, Hicrət Nəşriyyatı, 2011, Qum

[2] Qurani-Kərim, İnsan 8-9

[3] Zəməxşəri, Mahmud ibni Əmr, əl-Kəşşaf ən həqaiq ğəvamizit-tənzil, cild-4, səh-670, Beyrut, Darul-kitab əl-Ərəbi, 1985

[4] Qurani-Kərim, Bəqərə 264

yarı var. Çünki mütləq iqtidar odur və bütün nemətlərin səbəbi onun əlindədir. İnanclı insan heç bir məsələdə minnət qoymalı deyil, hətta iman məsələsində. Belə ki, Hücurat surəsində buyurulur:

“Onlar islamı qəbul etdiklərinə görə sənə minnət qoyurlar. De: “Müsəlman olduğunuzla mənə minnət qoymayın! Xeyr, əgər (iman gətirdiyinizi) doğru deyirsinizsə, (bilin ki) sizi imana müvəffəq etməklə, əslində Allah sizin boynunuza minnət qoymuş olur!”[1]

Qurani-Kərimdə könüllünün özəllikləri ilə bağlı qeyd edilən vəsflər və məziyyətlər bununla bitmir. İlahi kəlamda onun vəsfinə dair elə ülvi xüsusiyyətlər yer alıb ki, bu özəlliklər hər kəs üçün əlçatan deyil.

Yardım üçün müəyyən edilən əmtiənin, mal-mülkün ən yaxşı hissəsindən ayrılması Allahın kitabında tövsiyə edilən ülvi özəlliklərdən biridir. Əgər könüllü verəcəyi vəsaiti ən yaxşı, ən keyfiyyətli və ən yüksəyindən seçirsə Allaha olan inancını daha dürüsüt və səmimi şəkildə isbat etmiş olur. Ali-İmran surəsində belə buyurulur:

“Sevdiyiniz şeylərdən (haqq yolunda) sərf etməyincə yaxşılığa çatmarsınız. Şübhəsiz ki, Allah (Onun yolunda) xərclədiyiniz hər bir şeyi biləndir!”[2]

Belə bir şəxs yardıma görə əlindən əmlakının hansısa bir miqdarının çıxmasına görə narahat deyil. Onun məqsədi ilahidirsə, müvəqqəti dünya mal-mülkü onu özünə bağlaya bilmir. Belə bir könüllü yardımlaşma anında çox rahatlıqla malik olduğundan keçə bilir. O, əlindəkini müvəqqəti dünya malı, Allahın yanıdakını isə qalıcı və əbədi görür. Belə bir şəxs əlindən hansısa bir məbləğin çıxmasına narahat olmadığı kimi, sanki əlinə gələn hər hansı bir maddi vəsaitə görə də sevinmir. Qurani-Kərim bu ülvi özəllik haqda belə tövsiyə edir:

“Yer üzündə baş verən və sizin öz başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, bir kitabda (lövhi-məhfuzda) yazılmamış olsun. Bu, Allah üçün çox asandır!. Bu sizin əlinizdən çıxana kədərlənməməyiniz və sizə də verilənə sevinib qürrələnməməyiniz üçündür. Allah özünü bəyənən, (özü ilə) fəxr edən heç bir kəsi sevməz!”[3]

Könüllülərin yarışı

İslam dinində tövsiyə edilən məsələlərdən biridir. Dini kəlamlarda yardımlaşmanın gizlində aparılması buyurulursa, bəzən bu xeyirxah əməllərin aşkarda həyata keçirilməsi də tövsiyə edilir. Məsələn bir çox məqamlarda gecə ibadətlərinin savabının daha çox olduğu kimi, camaat namazlarının da bir o qədər aşkarda və kütləvi şəkildə həyata keçirilməsi tələb olunur. Eləcə də fərdi təşəbbüsdən irəli gələn yardımlaşmanın heç kim bilmədən həyata keçirilməsinin daha məqbul olduğu kimi, kütləvi yardımlaşma kompaniyalarının da təşviqat məqsədilə aşkarda olması bəzən zəruriət yaradır. Belə kütləvi yardımlaşmalar adətən kompaniya xarakteri daşıyır və cəmiyyətin digər üzvlərini də ona qoşulmağa çağırır. Bu halda onun bildirilməsi müsbət nəticələr verir. Məhz buna görədir ki, Quran ayələrində və hədislərdə xeyir işlərdə bir-birinizlə yarışın kimi tövsiyələr yer alır.

“Rəbbinizin məğfirətinə və genişliyi göylərlə yer üzü qədər olan, müttəqilər üçün hazırlanmış Cənnətə (çatmaq üçün bir-birinizlə yarışaraq) tələsin.”[4]

Ayədən bəlli olur ki, xeyir işlərdə insanlar bir-birini qabaqlamağa çalışmalıdır. Əsl rəqabət elə xeyir işlərdə olar. Madam ki, məqsəd Allahın mərhəmətinə nail olmaqdaır bu yolda hamı tələsməlidir və lazım gəlsə digərini keçməyə can atmalıdır. Burada nə həsəd var və nə də paxıllıq, burada olsa olsa yalnız qibtə ola bilər.

---

[1] Qurani-Kərim, Hücurat 17
[2] Qurani-Kərim, Ali-İmran 92
[3] Qurani-Kərim, Hədid 22-23
[4] Qurani-Kərim, Ali-İmran 133

ƏDƏBİYYAT SİYAHISI

1. Cavadi Amuli, Abdullah, *Həyate həqiqiye ensan dər Qoran*, Qum, İsra Nəşriyyatı, 2013
2. Əbu-Hamid əl-Qəzzali, Məhəmməd bin Məhəmməd, *İhya Ülumuddin,* Darul-Kutub əl-İlmiyyə, Beyrut, 1998
3. İbni-Əsir, Məcduddin əl-Mübarək bin Məhəmməd, *Nihayətun fi ğəribil-hədisi vəl-əsər*, Məktəbətul-İslamiyyə, Beytur, 2001
4. Kuleyni, Əbu-Cəfər Məhəmməd ibni Yaqub, *Üsuli-Kafi*, Hicrət Nəşriyyatı, 2011, Qum
5. *Qurani-Kərim*
6. Məclisi, Məhəmməd-Baqir, *Biharul-Ənvar*, Dar İhya ət-Turas əl-Ərəbi, Beyrut, 1995
7. Zəməxşəri, Mahmud ibni Əmr, *əl-Kəşşaf ən həqaiq ğəvamizit-tənzil*, Beyrut, Darul-kitab əl-Ərəbi, 1985